# Xocalı: ənənələr müasirliklə qovuşur



*Vaxtilə Xocalıda yaşayan əhali əkinçilik və heyvandarlıqla məşğul olub, öz güzəranını zəhmətlə, alın təri ilə qurub, bazara yüksəkkeyfiyyətli məhsul çıxarıb. Burada torpaq çox münbitdir, ərazidən Badara və Qarqar çayları keçir, qarağac, fıstıq, cökə, ağcaqayın ağacları ilə zəngin meşə örtüyü olub. Təəssüf ki, xain düşmən işğal illərində meşə zolaqlarını məhv edib. Əkinəyararlı torpaqlara mina basdıraraq onu çirkləndirib, bölgənin təbii sərvətlərini talan edib. Bir vaxtlar abad yaraşıqlı şəhər və kəndlər xarabalığa çevrilib, haylar torpaqların alt və üst qatlarına ciddi ziyan vurublar.*

Torpaqlarımız düşmənin basdırdığı minalardan təmizlənir, əkinəyararlı sahələr dövriyyəyə buraxılır. Hazırda işğaldan azad olunan ərazilərdə qeyri-neft sektoru üzrə prioritet istiqamətlərdən olan kənd təsərrüfatının inkişafı üçün çox geniş fürsətlər yaranıb. Minalardan təmizləmə işlərindən sonra məhz kənd təsərrüfatı məhsullarının istehsalı, əkin-biçin həyata keçirilir. Müharibə dövründə kənd infrastrukturunun dağılması, mal-qaranın tələf olması, meşələrin qırılması, minaların basdırılması, eləcə də əhalinin yerdəyişməsi ərzaq təhlükəsizliyi sahəsində uzunmüddətli problemlərin yaranmasına gətirib çıxarıb. Müqayisə üçün bildirək ki, 1980-ci illərdə Qarabağ və Şərqi Zəngəzurda 321 min baş iribuynuzlu və 1.1 milyon baş xırdabuynuzlu heyvan olub. Perspektiv dövrdə isə bu sayın müvafiq olaraq iribuynuzlu heyvanlar üzrə 430 min başa və xırdabuynuzlu heyvanlar üzrə 1. 6 milyon başa çatdırılması imkanları var. Heyvandarlıq sahəsinin inkişafı ölkənin ət və süd məhsulları ilə təminatı baxımından xüsusi önəm kəsb edir. Belə ki, işğaldan azad edilmiş bölgələrdə təqribən 45 min ton ət və 240 min ton süd istehsalı proqnozlaşdırılır ki, bu da ərzaq təhlükəsizliyinin gücləndirilməsində regionun əhəmiyyətini göstərir. Ölkəmizdə ərzaq təhlükəsizliyini təmin etmək məqsədilə hazırda 32 rayon üzrə 240 min hektar ərazidə ümumi layihə dəyəri 2,3 milyard manat olan 51 aqropark və iri fermer təsərrüfatı yaradılır. Artıq 44 aqropark fəaliyyətə başlayıb.

Uzun illər ərzində respublikamızda aparılmış səmərəli sosial-iqtisadi siyasət və iqtisadi islahatların dönmədən və ardıcıllıqla həyata keçirilməsi, uğurların davamlı və sabit olması xalqımızı ən çətin sınaqdan üzüağ çıxardı. Nəzərə alsaq ki, məhz 2003-cü ildən başlayaraq, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikamızda yeni iqtisadi siyasət strategiyası həyata keçirilməyə başlanılıb və dövlət başçısının ilk fərmanları da regionların sosial-iqtisadi inkişafı haqqında olub, həm də iqtisadi dirçəlişin başlandığı dövr kimi tariximizin səhifələrinə yazılıb. "Böyük Qayıdış" Proqramı erməni təcavüzünün nəticələrinin aradan qaldırılması, işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası, yurd yerlərinə əhalinin geri qayıdışının təmin edilməsi, insanların rifah səviyyəsinin yüksəldilməsi və son nəticədə bölgənin dayanıqlı inkişafına nail olunmasını əhatə edir. Böyük Qayıdış həm də Azərbaycanın iqtisadi potensialının artmasına, kənd təsərrüfatının inkişafına geniş imkanlar yaradır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sahibkarlıq fəaliyyətinin təşviqi biznes cəlbediciliyinin artırılmasında, regionun inkişafında və əhalinin rifahının yaxşılaşdırılmasında mühüm rol oynayır. Bölgədə yeni istehsal müəssisələrinin qurulması, məşğulluğun təmin olunması məqsədilə yerli və xarici investorların cəlbi istiqamətində dəstək tədbirləri həyata keçirilir. Belə müəssisələrdən biri də Prezident İlham Əliyevin iştirakı ilə mayın 9-da açılışı olan "Qoç Ət" Kəndli Fermer Təsərrüfatı MMC-nin Xocalı rayonunun Xanabad kəndi ərazisində yerləşən heyvandarlıq kompleksidir.




Kompleksə damazlıq, ətlik-südlük heyvandarlıq, istehsal və ictimai iaşə xidmətləri daxildir. Damazlıq fermer təsərrüfatının ümumi tutumu 750 baş iribuynuzlu heyvandan ibarətdir. Hazırda təsərrüfatda 355 baş üç növ müxtəlif cins iribuynuzlu damazlıq heyvan var. Türkiyə və Almaniya texnologiyaları tətbiq olunmaqla fəaliyyət göstərən kompleks illik 100 ton ət, 2 min ton süd istehsalı gücünə malikdir. Gələcəkdə süd istehsalının illik 3 min tona çatdırılması nəzərdə tutulur. Kompleksdə istehsal olunan məhsullar daxili bazarla yanaşı, Birləşmiş Ərəb Əmirliklərinə və Qətərə ixrac olunacaq. Müəssisənin işğaldan azad olunmuş ərazilərdəki fəaliyyəti nəticəsində 55 iş yeri yaradılıb. Gələcəkdə süd istehsalı müəssisəsinin işə salınmasından sonra işğaldan azad edilmiş ərazilərdə şirkət tərəfindən yaradılan iş yerlərinin sayı 100-ə çatdırılacaq. Layihə dəyəri 4,2 milyon manat olan kompleksin ərazisi 7,6 hektardır. 500 hektardan çox ərazidə isə payızlıq arpa və buğda əkilib ki, bu da təsərrüfatda yemə olan ehtiyacı qarşılayacaq. Qeyd edək ki, işğaldan azad olunmuş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan rezidentlər üçün idxal edilən texnika, texnoloji avadanlıq və qurğular, habelə xammal və materiallar ƏDV və gömrük rüsumlarından, həmçinin burada fəaliyyət göstərən sahibkarlıq subyektləri mənfəət, torpaq, əmlak və sadələşdirilmiş vergidən azad olunublar. Dövlətimizin başçısı İlham Əliyevin 2023-cü il dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" Forumunda dediyi kimi: "Biz əlimizdən gələni edirik ki, keçmiş məcburi köçkünlər üçün ən yaxşı şərait yaradılsın. Onlar buna layiqdirlər".

**Salman ALIOĞLU,**
**"Respublika".**

Respublika .- 2025.- 20 may (№ 103).- S.7.